**Akademik Tarih ve Düşünce Dergisi**
**Published by** **Autumn 2022 / 9-3**
https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.264

# Azərbaycan Xalqının Etnik İdentikliyinin Öyrənilməsində Maddi Mədəniyyət Nümunələri Mənbə Kimi (Milli Azərbaycan Tarixi Muzeyinin Kolleksiyası Əsasında)

**Fatma Qəniyeva***
**ORCID: 0000-0003-0914-189X**

**Xülasə**

Müasir dövrdə qloballaşma prosesinin sürətləndiyi bir şəraitdə maddi mədəniyyət milli dəyərlərlə sıx bağlı olan kimlik probleminin formalaşma mexanizminin dərk edilməsi baxımından öyrənilən və təhlil edilən əsas mövzulardan biridir. Məqalə süfrənin ənənəvi xalq sənətkarlığının bir fenomeni kimi nəzərdən keçirilməsinə həsr edilmişdir. Məqalədə süfrənin müxtəlif folklor janrlarında əks olunması ənənəvi məişət predmeti kimi nəzərdən keçirilir. Bütün bu sadalananlar məişət mədəniyyətinin və onun ayrı-ayrı hissələrinin fəaliyyət mexanizminin öyrənilməsini daha da aktual edir. Xalq sənəti, adət-ənənələretnoslar arasında etnik sərhəd və markerlərin mövcudluğunu tam şəkildə əks etdirir. Bununla yanaşı süfrə maddi mədəniyyət nümunələri içərisində qonaqpərvərlik elementi kimi özünəməxsusluğu ilə seçilir.Süfrə nümunələrində istifadə edilən müxtəlif tikmə növləri azərbaycanlıların identikliyinin maddi elementlər sayəsində öyrənilməsində olduqca önəm daşıyır.Burada əsas məqsəd azərbaycançılıq ideyasını özündə cəmləşdirən təsvirlərin məişət əşyalarında da əksinin tədqiqata cəlb olunmasıdır. Ümumilikdə maddi və mənəvi dəyərlərin məcmusunu təşkil edən mədəniyyətin xalqın tarixini qoruyub yaşadan Muzeylər vasitəsilə tədqiqi bu sahənin inkişaf istiqamətini də zənginləşdirir. Milli Azərbaycan Tarixi Muzeyinin zəngin kolleksiyasında parça məmulatından olan süfrələrin mühafizə olunması xalqın identikliyinin və dünyagörüşünün formalaşmasında təsirini sübuta yetirir.

**Açar sözlər:** İdentiklik, Maddi Mədəniyyət, Süfrə, Parça, Qonaqpərvərlik

**Gönderme Tarihi: 11/08/2021** **Kabul Tarihi:25/09/2022**

---

* *Elmi işçi, dissertant, Milli Azərbaycan Tarixi Muzeyi, Bakı - Azərbaycan, fatime.qeniyeva@gmail.com*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsini***
QƏNIYEVA, F., "Azərbaycan Xalqının Etnik İdentikliyinin Öyrənilməsində Maddi Mədəniyyət Nümunələri Mənbə Kimi (Milli Azərbaycan Tarixi Muzeyinin Kolleksiyası Əsasında) ", *Akademik Tarih ve Düşünce Dergisi*, C. 9, S. 3, 2022, s. 1104-1115.

# Samples of Material Culture as a Source in the Study of Ethnic Identity of the Azerbaijani People (Based on the Collection of the National Museum of the History of Azerbaijan)

**Fatma Ganiyeva***
**ORCID: 0000-0003-0914-189X**

**Abstract**

In modern times, when the process of globalization is accelerated, material culture is one of the main topics studied and analyzed in terms of understanding the mechanism offormation of the identity problem closely related to national values. The article is devoted to the consideration of tablecloths as a phenomenon of traditional folk crafts.In the article, the reflection of the table in various folklore genres is considered a conventional householdobject. All these listed are even more relevant for studying the mechanism of activity of household culture and its events. Folk art and traditions fully reflect the presence of ethnic borders and markers among peoples. The main goal here is to include in the study the reflection of images containing the ideology of Azerbaijanism on household items. Different types of embroidery used in tablecloths samples are significant in studying the identity of Azerbaijanis due to material elements. The preservation of cloth tablecloths in the rich collection of the National Museum of Azerbaijan History proves its influence on the formation of the identity and outlook of the people.

**Keywords:** Identity, Material Culture, Tablecloth, Fabric, Hospitality

**Received Date: 11/08/2021** **Accepted Date: 25/09/2022**

---

**Scientific worker, dissertation student, National Museum of Azerbaijan History, Baku - Azerbaijan, fatime.qeniyeva@gmail.com*

***You can refer to this article as follows:***
QƏNIYEVA, F., "Azərbaycan Xalqının Etnik İdentikliyinin Öyrənilməsində Maddi Mədəniyyət Nümunələri Mənbə Kimi (Milli Azərbaycan Tarixi Muzeyinin Kolleksiyası Əsasında) ", *Academic Journal of History and Idea,*Vol. 9, Issue 3, 2022, p. 1104-1115.

# Образцы Материальной Культуры как Источник в изучении этнической идентичности Азербайджанского Народа (На основе коллекции Национального Музея Истории Азербайджана)

**Фатьма Ганиева***
**ORCID: 0000-0003-0914-189X**

**Резюме**

В современных условиях, когда процесс глобализации ускоряется, материальная культура является одной из основных тем, изучаемых и анализируемых с точки зрения понимания механизма формирования проблемы идентичности, тесно связанной с национальной ценностями.Статья посвящена рассмотрению скатерти как явления традиционных народных промыслов. В статье рассматриваетсякак скатерть традиционный предмет бытаотражается, в различных фольклорных жанрах. Все это перечисленное еще более делает актуальным изучение культуры быта и ее отдельных частей. Народное искусство, традиции в полной мере отражают наличие этнических границ и маркеров среди народов. Наряду с этимскатертьособо отличается своей уникальностью как элемент гостеприимства среди образцов материальной культуры. Различные виды узоров, используемые в образцах скатертей, очень важны для изучения идентичности азербайджанцев благодаря материальным элементам. Основной целью здесь является привлечение к изучению отражения образцов, содержащих идею азербайджанства, в предметах быта. В целом музеи еще более обогащают, изучают и сохраняют это направление культуры, представляющей собой совокупность материальных и духовных ценностей В целом, различные виды узоров, используемые в образцах скатертей, в богатой коллекции Национального музея истории Азербайджана сохранение скатерти из различных тканей доказывает ее влияние на формирование идентичности и мировоззрения народа.

**Ключевые слова:** идентичность, материальная культура, скатерть, ткань,гостеприимство

**Получено: 11/08/2021** **Принято: 25/09/2022**

---

**Научный сотрудник, диссертант, Национальный музей истории Азербайджана, Баку - Азербайджан, fatime.qeniyeva@gmail.com*

***Ссылканастатью:***
QƏNIYEVA, F., “Azərbaycan Xalqının Etnik İdentikliyinin Öyrənilməsində Maddi Mədəniyyət Nümunələri Mənbə Kimi (Milli Azərbaycan Tarixi Muzeyinin Kolleksiyası Əsasında) ”, *академическаяистория и мысль,* T.9, NO.3, 2022, c. 1104-1115.

## Giriş

İdentiklik anlayışı (ilkin olaraq, daha çox, "kimlik") və ona yaxın olan terminlərin yaranması qədim yunanlardan başlayaraq müasir fəlsəfə və sosial elmlərə qədər uzun bir tarixi dövrü əhatə edir. Bu terminin istifadəsi müxtəlif elmlərdə fərqlilik təşkil edir. Riyazi nəzəriyyədə bu anlayışdan ilk dəfə məşhur İsveçrə alimi, fizik Leonard Eyler (1707-1783) mürəkkəb say sıralarının təhlilində istifadəni təklif etmişdir. Burada identifikasiya prosesi müəyyən stimulları seçmək, sistemə təqdim etmək və sistemin eyniadlı stimullara reaksiyalarını müşahidə etmək (qeydiyyata almaq) imkanlarını nəzərdə tutur.[1]

Müasir dövrdə etnik identiklik məsələsinin geniş şəkildə araşdırılması getdikcə daha çox vüsət alır. İlk olaraq bu məsələ sosial, mədəni, psixoloji amillərin təsiri altında təşəkkül tapır. Bu problemin öyrənilməsi bir sıra məsələlərin şərhinə aydınlıq gətirilməsini zəruri edir. Maddi və mənəvi mədəniyyət elementləri, onların məzmunu birbaşa kimlik hissinin formalaşması ilə sıx əlaqəlidir. Əsas etibarilə identiklik və onu təşkil edən maddidəyərlər xalqlar arasında ünsiyyəti, insanların bir-birini başa düşməsi kimi anlayışların meydana gəlməsini zəruri edərək onların mövqeyini daha da gücləndirir. Müxtəlif təyinatlı maddi nümunələr etnosların adət-ənənəsini, həyat tərzini öyrənməyə kömək edən əsas meyarlardandır.

Əsrlər boyu xalqın məişətində mühüm rol oynayan, tarixi kimliyin komponentləri olan maddi mədəniyyət nümunələri müxtəlif sənət nümayəndələrinin topladıqları təcrübə nəticəsində yeni-yeni xalq yaradıcılığı növlərinin yaranması və formalaşmasına təsir göstərmişdir. Son illərdə bütövlükdə dünyanın müxtəlif bölgələrində identiklik termini ilə bağlı tədqiqat işləri genişlənmişdir.Xalqın, adət-ənənəsi, inam və etiqadları əsasında yaranan və insan ömrünün hər bir mərhələsini özünəməxsus bir tərzdə əksetdirən maddi mədəniyyət nümunələri, hər şeydən əvvəl,əcdadların həyatı ilə bağlı tarixi, mədəni informasiya iləzəngindir.

### 1-Maddi mədəniyyət elementi olan süfrənin yaranma tarixi və Azərbaycan məişətində mövqeyi

Azərbaycan xalqının məişət və mərasimlərinin əsas atributlarından biri də süfrədir. Süfrələr-öz tarixini, mədəni ənənələrini, bədii-dekorativ görünüşü və müxtəlif xalqların sənət bacarıqlarını özündə əks etdirən çox qədim məişət predmetidir.İlk dəfə süfrədən Qədim

[1] A. Loqvinenko, *Çustvennıye osnovı vospriyatiya prostranstve*, MQU, Moskva 1985, s. 17.

Misirdə istifadə edilməyə başlanılmışdır. Hələ o dövrdə misirlilər pambıq və kətan kimi incə parçaların istehsalını yaxşı bacarırdılar. Süfrə qədim dövrdə uğur və ailələrin əmin-amanlıq simvolu hesab edilirdi. Həmin dövrdə süfrəsiz masada yalnız qullar və ən aşağı təbəqədən olan insanlar əyləşə bilirdilər. Ən bahalı süfrələr isə Qədim Romada, Yunanıstanda və İranda qızıl saplardan toxunurdu.[2]

Süfrə hər bir azərbaycanlının həyatının ayrılmaz bir hissəsi olmaqla yanaşı, həm də evin, ailənin, ayrılıqda fərdin qoruyucusu olmuşdur. Süfrələrə xüsusi gözəllik bəxş edən isə naxışlar və rənglərdir. Tirmə, mahud, məxmər vəpambıq parçalardan hazırlanmış qələmkar süfrələr Azərbaycan xalqının qədim tarixini özündə yaşadan məişət elementi olmaqla bərabər, həm də qonaqpərvərlik rəmzidir.

Azərbaycan ərazisində eradan əvvəl III-I əsrlərdə yun parçaların hazırlanması haqqında məlumat vardır[3].Artıqorta əsrlərdə isə Təbriz, Mərənd, Ordubad, Gəncə və s. şəhərlər Azərbaycanda pambıq parça istehsalının başlıca mərkəzlərinə çevrilmişdir. XVII əsr məşhur türk səyyahı və coğrafiyaşünası Övliya Çələbinin yazdığına görə, Naxçıvanın çit parçaları, qələmkar süfrələri bütün dünyada şöhrət qazanmışdır.[4]Səyyah Azərbaycanda olarkən Qərşi qalasının ağası tərəfindən necə qarşılandığını belə təsvir etmişdir: Qonaqlıqda adi süfrə yerinə çit parçadan hazırlanmışqələmkar süfrə sərildi.[5] Beləliklə aydın olur ki, keçmişdə olduğu kimi, müasir dövrdə də bu ənənə davam etdirilərək qonaqlar üçün bir qayda olaraq müxtəlif bəzəkli süfrələr salınır.Satin və atlas parçalar toxuculuq sənayesinin müxtəlif sahələrində: pambıq parça toxuculuğunda – satin, lastik, və s.; kətan parça toxuculuğunda – süfrə, salfet və s. hazırlanmasında istifadə edilir.

Müasir dövrdə süfrələr estetik baxımdan həm rəng, həm də materialların müxtəlifliyinə görə daha zəngin elementlərlə istehsal edilir. Zəngin xammal ehtiyatına malik olan Azərbaycanda müxtəlif növ hörmə və toxuma məmulatından olan süfrələrdən də istifadə olunmuşdur. Sucar sahələrdə yetişən lifli bitkilər (lığ, ziyəlığ, dala, 40 cil), elastik ağac çubuqları, şilgir, tənək, dənli bitkilərin küləşi hörmə işində yaxın keçmişə qədər əməli əhəmiyyətini itirməmişdir. Ev məişətində geniş yayılmış ciyəbənd, zənbil, kövsərə, süfrə, tərəzi gözü hörmə üsulu ilə hazırlanırdı. Çubuqdan hörülən səbət, tərəcə, salğar, çilovsüzən və s. özünün təsərrüfat və məişət əhəmiyyətini əsrlər boyu qoruyub saxlamışdır.[6] Qeyd edək ki,

---

[2] M. Babençikov, *Narodnoye dekorativnoye iskustvo,* Zakavkazya i yevo mastera, Arxitekturnoye izdatelstvo, Moskva 1948, s. 47.
[3] M. Tərlanov, *Azərbaycan xalq yaradıcılığı nümunələri,* Qızıl Şərq, Bakı 1959, s. 6.
[4] *Azərbaycan etnoqrafiyası,* Üç cilddə, AMEA, Arxeologiya və Etnoqrafiya İnstitutu, red. hey. M. Rəhimova; baş red. T. Bünyadov, I, Şərq-Qərb, Bakı 2007, s. 154.
[5] B. Hüseynbalaoğlu- M.Talışlı, *Lənkaran,* Maarif, Bakı 1990, s. 7-8.
[6] A.H. Mustafayev, *Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat),* Bakı Universiteti nəşriyyatı, Bakı 2009, s. 39.

Muğan ərazisi, xüsusilə Lənkəran-Astara bölgəsində vaxtilə taxıl saxlamaq və digər müxtəlif məqsədlər üçün istifadə edilən həsirdən, həmçinin cecim tipli parçalardan da süfrə hazırlanırdı. Həsir süfrələr lığ və ya ziyəlığdan burub eşmə üsulu və ciyə hazırlanması ilə toxunurdu. Zənbil, kövsərə tipli süfrələr də eyni üsulla hazırlanırdı. Azərbaycan maddi mədəniyyətinin bir hissəsi olan həsir qədim xalq sənəti növlərindən olub, hal-hazırdabölgələrdə məişət atributu olmaqla yanaşı, öz əhəmiyyətini itirməmiş, identikliyini qoruyub saxlamışdır.

**2-Etnik identiklik komponenti olan süfrənin xalq yaradıcılığında əksi**

Danılmaz gerçəklikdir ki, milli mənəvi dəyərlər xalqın maddi mədəniyyət nümunələri simasında formalaşıb təşəkkül tapır. İstər şifahi, istərsə də yazılı ədəbiyyatda bu məsələ ilə bağlı nümunələr mövcuddur. Türk xalqlarının milli və mənəvi dəyərlərini özündə birləşdirən “Kitabi – Dədə Qorqud” dastanında süfrə ilə bağlı atalar sözlərinə müraciət etmək daha məqsədəuyğundur.“Oğul atadan görməyincə süfrə çəkməz”.[7] Burada bu hikmətli sözün iki mənası özünü göstərir. İlk olaraq süfrə mədəniyyətini diqqət önünə çəkən bu atalar sözü qonaqpərvər olmaq anlamında istifadə edilir. Atalar sözünün ikinci mənası isə “süfrə çəkmək”, yəni süfrə salmaq kimi başa düşülür. Belə ki, Türk xalqlarının adətinə görə istər ailə daxilində, istərsə də qonaqlıq mərasimlərində ilk olaraq döşəməyə və ya masaya süfrə salınır və daha sonra yemək, çay təqdim edilir.

Xalqın zəka qüdrətinin bariz nümunəsi olan, əsrlərlə dildən-dilə keçən xalq ədəbiyyatının fərqli janrlarında da süfrə haqqında fikirlər söylənilmişdir. Burada şifahi xalq ədəbiyyatı nümunəsi olan atalar sözlərindən bir neçəsini xüsusi qeyd etmək olar. “Evin yaraşığı uşaqdır, süfrənin yaraşığı qonaq”.[8] “Qonaq sevənin süfrəsi boş qalmaz”[9], “Mərd igidlər süfrə açar, ad alar”[10], “Öz çörəyini özgə süfrəsində yemə”.[11] Bundan əlavə süfrə ilə bağlı bir sıra inanclar da mövcuddur. “Yuxuda süfrə görmək bərəkətdir”. “Süfrədə çörək ovulsa, qonaq gələr”. “Hər kim süfrədə çörək qırsa onun uşağı çox olacaq”. “Süfrənin küncündə oturmazlar, bərəkəti çəkilər”. “Yemək yeyəndə süfrə başında hər kim təvazökarlıq edərsə, borca düşər”.[12]

Azərbaycanlılar arasında formalaşan digər bir inanc isə toy və yas mərasimlərində süfrə salma adəti ilə bağlıdır.Azərbaycanda ənənəvi toylarda “Bəydurma”, “Bəyoturma” mərasimləri keçirilərdi. Oğlan toyunun ikinci günü, həm gəlingətirmənin əvvəlində, həm də

---

[7] *Kitabi-Dədə Qorqud, Əsil və sadələşdirilmiş mətnlər,* Öndər nəşriyyat, Bakı 2004, s. 20.
[8] *Atalar sözləri,* AMEA, Folklor İnstitutu, Nurlan, Bakı 2013, s. 165.
[9] Yenə orada, s. 295.
[10] Yenə orada, s. 313.
[11] Yenə orada, s. 341.
[12] M. Hacıyev, *İnanclar- inamlar,* Gənclik, Bakı 1996, s. 78.

toyun sonunda icra edilən bu mərasimdə bəy musiqi sədaları altında toyxanaya gətirilərdi. O məclisdəkiləri salamladıqdan sonra sağdış-soldışla birlikdə toyxananın yuxarı tərəfində xalçalar döşənmiş, bəzəkli zəngin bir kürsüdə - "Bəylik taxtı"nda (bu taxt "döş masası" da adlanır) əyləşirdi. Bəyin qarşısına qırmızı süfrəli masa qoyular, üzərinə həmin rəngli qaytanla bağlanmış güzgü, şamdan və şirniyyat xonçaları düzülərdi.[13] Əsas etibarilə qırmızı rəng xoşbəxtlik rəmzi olub, həm də müqəddəslik, paklıq kimi mənaları özündə ehtiva edir. Ona görə də istər qızların gəlin köçərkən qırmızı duvağa, cehiz tərkibində bu rəngə üstünlük verməsi, istərsə də oğlanlar üçün toy və onun əsasını təşkil edən digər mərasimlərlə bağlı bəzi adətlərdə qırmızı rəng seçiminə keçmişdən bu günə qədər rast gəlinir.Yas mərasimində isə mövcud inanca görə məclis bitdikdən sonra süfrə otağın aşağı hissəsindən yuxarıya doğru toplanır, mənası isə onunla izah olunur ki, bir daha həmin evdə bədbəxt hadisə, ölüm baş verməsin. Adətə görə bu işi isə eyni şəxs icra edir.

**3-Milli Azərbaycan Tarixi Muzeyinin süfrə kolleksiyası**

Keçmiş haqqında unikal informasiyaya malik olan,mədəni irsi qoruyan, mədəniyyət ocağı hesab edilən muzeylər, həmçinin kolleksiyaçılıqənənələrinin qədim olduğunu tarixi faktlarla sübut edən elmi tədqiqatmüəssisəsidir. Azərbaycanın zəngin mədəniyyətə malik olmasını təsdiq edən, tarixin qədim köklərə bağlılığını özündə birləşdirən muzeylər gənc nəslin dünyagörüşünün formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda qorunub saxlanılan dəyərli eksponatlar içərisində süfrələr çeşid incəliyi baxımından diqqəti cəlb edir.Muzeyin Etnoqrafiya fondunda XIX-XX əsrin əvvəllərinə aid çeşidli saya və müxtəlif naxışlı tirmə, mahud,ipək, məxmər və s. parçalardan hazırlanmış süfrələr mühafizə olunur. Mahud və məxmər parçalardan hazırlanan süfrələrin əksəriyyəti təkəlduz tikməlidir. (Şəkil 1) Təkəlduz sözünün mənasına gəldikdə isə, heç də tək əl ilə düzmək mənasını ifadə etmir. Əslində bu söz təkaltıduz deməkdir. Məlumdur ki, əvvəllər Azərbaycan dilində sonu "duz" şəkilçisi ilə bitən hər hansı peşə və ya sənətin adını bildirən, məsələn palanduz (palan tikən), çuvalduz (çuval tikən), zərduz (güləbətin tikmə ilə işləyən) və d. sözlər çox işlənilmişdir. Vaxtilə təkəlduz da belə sözlərdən olub, "tikmək" mənasını bildirir.[14] Azərbaycanda müxtəlif növ sənətkarlıq sahələri ilə məşğul olan Şəki təkəlduz tikmə sənətinin vətəni sayılır. Məhz XVIII-XIX əsrləri Şəkidə təkəlduz tikmə sənətinin əsas inkişaf dövrü adlandırmaq olar. Azərbaycanda bu tikmə sənətinin tarixi qədimdir. Sasanilər dövründə rast gəlinən bu sənət növü get-gedə təkmilləşmiş və orta əsrlərdə bir xalq sənəti kimi öz yerini tutmuşdur. Bu tikmə növündən, əsasən, geyim, süfrə,

---

[13] *Azərbaycan etnoqrafiyası,* Üç cilddə, AMEA, Arxeologiya və Etnoqrafiya İnstitutu, red. hey. M. Rəhimova, baş red., T. Bünyadov, C. III, Şərq-Qərb, Bakı 2007, s. 503.
[14] S. Hacıyeva, *Naxçıvanda sənətkarlıq,* Əcəmi, Naxçıvan 2017, s. 122.

balış və mütəkkə üzü, xalça məmulatının hazırlanmasında istifadə olunur. Azərbaycanın Bakı, Şamaxı, Təbriz və daha sonralar Şuşa kimi şəhərlərində güləbətin tikmə sənəti geniş yayılsa da, Şəki və Gəncə ərazisində isə təkəlduz tikmə sənətinin "gəzmə" və doldurma" növləri səciyyəvi xarakter daşıyırdı.Təkəlduz, o cümlədən muncuqlu tikmə əsas etibarilə məxmər, qanovuz və mahud parçalar üzərində işlənirdi. Milli Azərbaycan Tarixi Muzeyinin zəngin tikmə kolleksiyasına malik Etnoqrafiya fondunda təkəlduz tikmə növündən istifadə olunmuş müxtəlif təyinatlı maddi mədəniyyət nümunələri qorunub saxlanılır. Belə eksponatlar arasında XIX -XX əsrin əvvəllərinə aid edilən süfrə, balış üzü, mütəkkə üzü, divar bəzəyi, namazlıq və d. maddi nümunələr qeyd oluna bilər. Həmin dövrdə geniş yayılmış bu maddi nümunələr ər evinə gəlin köçən qızların cehizinin əsas atributlarından idi. Həmçinin Muzeyin kolleksiyasında təkəlduz tikmə sənətində istifadə edilən qullab vəqasnaq kimi əmək alətləri də mühafizə olunur. Bu əmək alətlərindən qullab bəzən "qarmaq", qasnaq isə "sağnaq" adlanır.

Səfəvilər dövləti dövründə Hindistandan Azərbaycana müxtəlif ədviyyatla yanaşı, əsasən Kəşmirdə istehsal olunan, Şərqdə geniş yayılmış "tirmə" adı ilə məşhur olan qızıl dəyərli, habelə qızılı saplarla toxunmuş pambıq və ipək parça gətirilirdi. Bakı və Azərbaycanın digər şəhərlərinin əyanları Hindistan və Şərqin digər ölkələrindən gətirilən bahalı yun və pambıq parçalardan istifadə edirdilər.[15] Tekstil məmulatı içərisində istehlakçılar tərəfindən geniş istehlak edilən parçalardan biri də mahuddur. Ümumiyyətlə mahud tekstil parçaları içərisində özünəməxsus yer tutur. İstər geyim istehsalında, istərsə də digər məqsədlərlə istifadə edilən mahud parça toxuculuğunda yun lifləri əsas xammal kimi götürülür. Bir faktı da qeyd etmək lazımdır ki, qədim dövrlərdən yun lifi nəinki geyim eləcə də, süfrə, keçə istehsalında, ayaqqabıların tikilməsində də əsas xammal kimi istifadə olunmuşdur. Yun lifindən geniş şəkildə istifadə edilməsi ilk növbədə onun istehlak xüsusiyyətinə malik olmasından irəli gəlir.



*Şəkil 1.Milli Azərbaycan Tarixi Muzeyi. EF 8789 Mahud, təkəlduz tikmə.*

[15] J. Charden, *Voyages du chevalier Chardin en Perse et autres lieux de l'Orient,* Vol I-IX, Atlas, Paris 1811, s. 3, 264.

Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında Azərbaycan sənətkarları tərəfindən pambıq parçalardanhazırlanmış qələmkar süfrələrda qorunub saxlanmaqdadır. Bədii tikmə məmulatı ornamental motivlərin zənginliyi və müxtəlifliyi ilə fərqlənirdi. Azərbaycan bədii tikmələrində ən çox istifadə edilən bitki motivləri qızılgül, nərgiz, qərənfil, lalə, zanbaq, meyvə ağaclarının yarpaqları-nar, heyva, alça çiçəkləri, müxtəlif formalı yarpaqlar süfrələr üzərində də öz əksini tapmışdır. Muzey kolleksiyasındaqorunub saxlanılan əsas rəngləri göy, qırmızı, qəhvəyi ipək üzərində simmetrik təkrarlanan nəbati ornamentli süfrə nümunələrinin əksəriyyəti XIX-XX əsrə aid edilən bədii tikmələrdir.



*Şəkil 2.Milli Azərbaycan Tarixi Muzeyi. EF 3052. Qələmkar*

Qələmkarlıq nümunələri faktiki olaraq rəngkarlıq əsərləri də adlandırıla bilər. Estetik baxımdan da gözəl görünüşə malik belə təsvirlərin əldə edilməsi naxış formalı qəliblərin parça üzərinə basılması ilə həyata keçirilən prosesin nəticəsidir. Qələmkar süfrə, pərdə, canamaz, dəsmal və s. yaxın keçmişədək ev məişətinin ən zəruri ləvazimatlarından sayılırdı. Bu maddi nümunələrin hazırlanması mürəkkəb texniki iş üsulu və dərin peşə təcrübəsinə malik ixtisaslı usta əməyi tələb edirdi.

Qeyd edək ki, qələmkarlıq nümunələrinin bəzədilməsində müxtəlif naxış formalarına malik qəliblərdən istifadə edilməsi onların kütləviliyinə nail olunmasına və istənilən sayda hazırlanmasına imkan verir. Bu naxışların ipək üzərində çəkilməsi təsvirin təbii olmasını göstərir. Başqa sözlə desək, ipək üzərində akril boyalarla yaradılmış bəzəklər basma və tikmə üsulu ilə icra edilirdi.

Ayrı-ayrı vaxtlarda Təbriz, Ərdəbil, Şamaxı, Gəncə, Naxçıvan və başqa şəhərlərdə olmuş səyyahlar Azərbaycan tikmələrinin yüksək texniki və bədii xüsusiyyətlərinə valeh olduqlarını öz gündəliklərində dəfələrlə qeyd etmişlər. XVI əsrdə Azərbaycanda olmuş ingilis səyyahları A. Cenkinson, T. Olkok, C. Ren, R. Cini ipək parçadan qızıl-gümüş saplarlahazırlanmış nəhəng çadırlar haqqında, XVII əsrin fransız səyyahı Ş. Şarden

isəAzərbaycanın maddi mədəniyyət nümunələrini, Səfəvi hökmdarlarının Parisin Luvr qalereyasını xatırladan tikmə karxanaları olduğu və d. haqqında məlumat vermişlər.

Hüseynqulu Sarabski Azərbaycan məişətində qələmkar süfrələrdən istifadə haqqında yazırdı: "*Novruz bayramı axşamı bütün ailə evdə toplaşardı. Otağın yuxarı hissəsindəuşaqların atası üçün xüsusi döşəkcə salınardı, bununla yanaşı xalının üzərinə böyük qələmkar süfrə döşənərdi. Həmçinin toy mərasiminin ilk mərhələsi sayılan "hə" qonaqlığında da "mübarək olsun" deyildikdən sonra, qələmkar süfrə salınaraq qonaqlara şirin çay təqdim edilirdi."*[16] Azərbaycanın müxtəlif bölgələrində qonaqpərvərlik adətinin icrası fərqlilik təşkil edir. Lakin gələn qonaq üçün süfrə salınması hər bir bölgəyə xas xüsusiyyətdir.

Etnoqraf F. Vəliyev qonapərvərlik adətinin etnoqrafik xüsusiyyətləri haqqında belə yazır: "*Evə qonaq gələn zaman onun üçün mütəkkə və nazbalış qoyulur, ortalığa açma (dəstərxan) və ya qələmkar süfrələr salınır. Yeməkdən əvvəl və sonra qonağın əlini yuması üçün aftafa və ləyən gətirilirdi. Kənd yerlərindən fərqli olataq şəhərdə yeməkdən sonra əlləri yumaq üçün güıablı su da qoyulurdu."*[17] XVI-XVII əsrlərdə parça üzərinə salınan tikmə üsullarından ən bədii və məşhuru güləbətin idi. Bu tikmə əsasən ağır və bahalı parçalar üzərində tətbiq olunurdu. Güləbətin üçün əsas parça məmulatı, adətən tirmə,mahud və məxmərparçalar seçilirdi. Güləbətin tikmələrin sapı qızıl, gümüş və bürüncdən hazırlanırdı. XVI-XVII əsrlərdə güləbətin tikmə, xüsusilə Bakı, Şamaxı, Naxçıvan və Təbrizdə geniş yayılmışdır. Təsadüfi deyildir ki, XVI əsrin sonlarında Təbriz sənətkarları tərəfindən güləbətin tikmə ilə bəzədilən xələt türk sultanı III Murada hədiyyə göndərilmiş və bu günə qədər İstanbulda yerləşən Topqapı sarayı muzeyinin nadir incilərindən sayılır.[18] Güləbətin tikmə müxtəlif məişət əşyalarında –süfrə, heybə, quranqabı, daraq qabı və qadın üst geyimlərində daha çox istifadə olunurdu.



*Şəkil 3. Milli Azərbaycan Tarixi Muzeyi. EF 1813. Güləbətin*

[16] H. Sarabski, *Köhnə Bakı,* Şərq-Qərb, Bakı 2006, s. 26, 29,90
[17] F. Vəliyev, *XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti,* Tarixi-etnoqrafik tədqiqat, elmi red., T. Bünyadov, AMEA, Arxeologiya və Etnoqrafiya İnstitutu, Şərq-Qərb, Bakı 2010, s. 42.
[18] R. Əfəndiyev, *Azərbaycan xalq sənəti,* İşıq, Bakı 1984, s. 121.

## Nəticə

Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası Azərbaycanın maddi mədəniyyət nümunələrinin tədqiq edilib öyrənilməsi üçün yüksək əhəmiyyət kəsb edir.Bu baxımdan tarixin müxtəlif dövrlərini özündə əks etdirən maddi mədəniyyət nümunələri hər zaman xüsusi maraq doğurur. Texnologiyanın inkişafı məişətdə istifadə olunan əşyaların sürətlə dəyişməsinə gətirib çıxarmış, nəticə etibarilə yazı məhsullarına tələbatın azalmasına səbəb olmuşdur. Meydana gəlməsi çətin və uzun müddət tələb edən məhsullara, daha doğrusu maddi mədəniyyət nümunələrinə müəyyən sənət mərkəzlərində və muzeylərdə rast gəlinir. Bu inkişaf səbəbindən ağac çap üsulu kütləvi istehsal edilə bilən ekran çapı ilə əvəz olundu və bu da bəzək nümunələrində rəng, naxış xüsusiyyətlərinin tədricən transformasiyasına gətirib çıxardı. Sözsüz, Azərbaycan xalqının məişətində istifadə olunan süfrə nümunələri haqqında məlumat vermək və onu tam təfsilatı ilə bir məqalədə tədqiq etmək qeyri-mümkündür. Bu baxımdan muzeylərdə mühafizə olunan maddi nümunələrin təbliği və dərindən araşdırılmasına böyük ehtiyac vardır.

**İstifadə edilmiş ədəbiyyat**

*Atalar sözləri,* AMEA, Folklor İnstitutu, Nurlan, Bakı 2013.

*Azərbaycan etnoqrafiyası,* üç cilddə, AMEA, Arxeologiya və Etnoqrafiya İnstitutu; red. hey. M. Rəhimova: baş red. T. Bünyadov, C. I, Şərq-Qərb, Bakı 2007.

*Azərbaycan etnoqrafiyası,* üç cilddə, AMEA, Arxeologiya və Etnoqrafiya İnstitutu; red. hey. M. Rəhimova: baş red. T. Bünyadov. C. III, Şərq-Qərb, Bakı 2007.

HACIYEV, M., *İnanclar, inamlar,* Gənclik, Bakı 1996.

HACIYEVA, S., *Naxçıvanda sənətkarlıq,* Əcəmi, Naxçıvan 2017.

HÜSEYNBALAOĞLU, B., TALIŞLI, M., *Lənkaran,* Maarif, Bakı 1990.

ƏFƏNDİYEV, R., *Azərbaycan xalq sənəti,* İşıq, Bakı 1984.

*Kitabi-Dədə Qorqud, Əsil və sadələşdirilnıiş mətnlər,* Öndər nəşriyyat, Bakı 2004.

MUSTAFAYEV, A., *Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat),* Bakı Universiteti nəşriyyatı, Bakı 2009.

SARABSKİ, H., *Köhnə Bakı,* Şərq-Qərb, Bakı, 2006.

TƏRLANOV, M., *Azərbaycan xalq yaradıcılığı nümunələri,* Qızıl Şərq, Bakı 1959.

VƏLİYEV, F., *XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti,* AMEA, Arxeologiya və Etnoqrafiya İnstitutu, Şərq-Qərb, Bakı 2010.

BABENÇİKOV, M., *Narodnoye dekorativnoye iskustvo, Zakavkazya i yevo mastera,* Arxitekturnoye izdatelstvo, Moskva 1948.

CAFARZADE. İ., Qobustan, Naskalnoye izobrajeniya.Elm, Baku, 1973.

LOQVİNENKO, A., *Çustvennıye osnovı vospriyatiya prostranstve,* MQU, Moskva 1985.

CHARDEN, J., *Voyages du Chevaller Chardin in Perse autres licux de J'Orient,* Vol I-IX.Atlas, Paris 1811.